# İracoğlunun həyat romanı

*(Əvvəli ötən sayımızda)*

Novruzun əsas atributlarından olan səməni və səməni (“hora”) bişirilməsi ənənəsi, habelə tüfəngin çilldən çıxarılması və s. kimi inancların burada əksini tapması folklor yaddaşımızı təzələyir və bir qədər sonra əsərin qəhrəmanı olan Muradla anası arasında belə bir canlı dialoq qurulur:

“-Ana, bayram qurtardı, hə?

-Hə, oğlum, neçə-neçə belə bayramlara çıxasan!

-Bəs bir də bayram nə vaxt olacaq?

-Bir ildən sonra.

Bu vaxt müddəti Murada çox uzun gəldi. Sonra o anaya heyrət ediləcək bir sual verdi: - Ana, Şəhla xala da bayram etdi, hə?

Ana döyükdü, oğlunun yaddaşı, hafizəsi onu heyrətə saldı.

Ana çaşdı, sonra da: -Hə, oğlum.

Murad: -Bizim evdə də şam yandırıblar?

-Hə, bala, bizim də qapını açıb, orda şam yandırıblar.

-Ana, bəs evimizə nə vaxt qayıdacağıq?

Ana udqundu, bu dəfə ağlamaqdan özünü güclə saxladısa da, gözləri yaşardı, o artıq belə ağrıları çox çəkmişdi.

-Sən böyüyüb institutda oxuyanda! İndi biz ora getsək, bizi saxlayan olmayacaq. Sən yaxşı oxuyarsan, instituta girərsən, qayıdarıq evimizə. İşləyib pul qazanarsan, məni də saxlayarsan.

Oğlan fikrə getdi, sanki anasının sözlərini beyninə, yaddaşına köçürürdü. Bir azdan o: -Yaxşı, ana, mən yaxşı oxuyacam, evimizə qayıdacam! Sizi də aparacağam özümnən! Bəs mən nə vaxt məktəbə gedəcəyəm?” (s.76).

Əslinə qalsa, bu dialoqda Novruz bayramına xalqın münasibəti məsələsi ifadə olunub. Belə ki, burada Novruz bayramının xoş ovqatı ilə körpə (balaca Muradın timsalında) dünyasının məsumluğu arasında bir mütənasiblik olduğundan, Murad Novruz bayramının bu xoş ab-havasından özündən ixtiyarsız olaraq ayrılmaq istəmir və ona görə də bir də gələn il - bir ildən sonra bayramın olacağına uzun bir zaman intervalı kimi baxır. Hərçənd ki, Novruz bayramı özünün müsbət energetik gücü ilə xalqı səfərbər edir, xalqın mübarizə əzminə bir ilə çatacaq qədər yenilməzlik verir və növbəti ildə yenidən bu güc bərqərar olmaqla insanlara yaşam stimulu bəxş edir.

Əsərdə xalqın dini-mifik inanc və adətlərinə də təbiiliklə yer verilib:

“Aşuradan bir neçə gün sonra güclü yağış yağdı. Yeri-yurdu su basdı, ancaq yağış dayanmadı. Yaylaqda qoyun-quzu qalmışdı yağışın altında. Çoban Ağayəhya işi belə görəndə fikirləşdi ki, gedim Mirqurban ağanın yanına, bəlkə o bir çarə eylədi. Mirqurban ağa da onu görən kimi eyvana çağırdı. Nə üçün gəldiyini soruşdu.

-Ağa, hər ikimiz seyid adamıq! İşgüc tökülüb qalıb! Əlimiz heç yerə çatmır! Bir çarə elə, yağış dayansın!

Mir Qurban ağa göyə baxdı, qara sıx buludları seyr eyləyib dedi:

-Ağayəhya, vallah, mən özüm qalxsam o gözə görünməzin yanına, yenə saxlaya bilməyəcəyəm!

Ağayəhya gördü ki, Ağa lap çıxdı “o kişinin yanına”, keçdi hiyləyə:

-Ağa, sənə nə pisliyimiz dəyib ki?! O cür Aşura keçirdik!..

Mir Qurban ağa da son sözünü dedi: -Dedim ki, mümkün deyil! Get bir Qurban sümüyü tapıb odda yandırın, yağış kəsər!

Bu yerlərdə adət idi: yağış yağmayanda da qurban ətinin sümüyünü yandırardılar, çox yağış yağanda da!..

Ağayəhya da öz-özünə gülə-gülə: “Mən məsləhət istədim”, o da qalxdı oturdu o kişinin yanında, gör bu özün nə sayır?!” Kişi getdi qurban sümüyü axtarmağa...” (s.150-151)

Bu parçada isə kənd həyatına və əhalinin inanclarına dair xarakterik bir tablo yaradılmışdır. Sanki müəllif həmin dövrün kənd həyatını canlı şəkildə kinolenti kimi gətirib gözlərimizin qarşısında nümayiş etdirir. Bir anlıq o dövrün ictimai aurasına daxil olub, özünü həmin insanların arasında hiss edirsən. Bu da yazıçının real həyat hadisələrini təbiiliklə təqdim etmə ustalığıdır.

Aşağıdakı parçada isə müəllif hələ də kənd yerlərində hökm sürən dini fanatizmi və bu xurafatdan doğan avamlığı çox təbiiliklə açıb göstərib:



“...Bu xəbəri eşidən qohum-əqrəbamız dəstə-dəstə dayımgilə gəlir, anama təsəlli verir, hərə bir təklif verirdi. Bir gün də ana babamın bacısı qızı, hamımızın “bacı” deyə çağırdığımız Xəccə (əslində adı Xədicə idi) bacı anamın yanına gəldi, xeyli sızıldayıb ağladı, qarğış tökdü. Sonra birdən anama dönüb dedi:

-Ay qız, Həzrət Abbasa ərizə yazdırmısan?

Anam dedi ki, yox. Xəccə bacı:

-Nahaq, çox nahaq, ona görə də tapılmır avadanlığınız daynan! Onun qələm olan qollarına qurban olum, işi özün gecikdirmisən! Sən, ceddinə qurban olum, Seyid Hüseyn ağaya bir ərizə yazdır, atdır dənizə, sonra tamaşa eylə, bu işdə əli olanların gör necə tifaqı dağılır!!

Xəccə bacı o qədər inamlı danışdı ki, anam və dayıdostum bir kəlmə danışa bilmədilər. Bir-birinin üzünə baxa-baxa qaldılar. Haçandan-haçana kifayət qədər dindar olan dayıdostum anama döndü:

-Bacı (anam yaşça dayımdan və ondan böyük olduğundan hamı ona bacı deyirdi), vallah Xəccə bacı düz deyir, heç bir ağlımıza da gəlməyib ki, ərizə yazdıraq. Bu sovet milisindən heç gözüm su içmir. Səhər gedək axund Seyid Hüseyn ağanın yanına, yalvar-yaxar edək bir ərizə yazsın. Deyirlər əlli manata yazır, biz on-on beş manat verərik yazar. Deyək ki, şeylər tapılsın, yenə xonça tutub gələrik yanına.

Bu vaxt Xəccə bacı dilləndi:

-Pəricahan düz deyir, hər adam üçün o kişi ərizə yazmır, çox mömin adamdır. Deyir ki, düşər-düşməzi olar, bir qədər ehtiyatlı olun. Yarməmməd bilməsin, o belə şeylərə şəkk gətirir. Şəkk gətirdin, işiniz bitdi, o daha düzələn deyil!

Xəccə bacı son tapşırıqlarını verib getdi. Evdəkilər də Seyidin yanına getməyə hazırlaşdılar. Səhərisi gün onun yanına gedib kişini yalvar-yaxarla razı salıb ərizə yazdıra bilmişdilər. Axund ərizəni yazıb qara yaylığa bağlayıb verərkən demişdi:

-Əməli saleh adama verin, atsın dənizə, təmiz adam olsun, ürəyində şəkk olmasın, yaxşı olar ki, yasin oxuyan, namaz qılan olsun. İnşallah, tapılar” (s.224-225).

İslam dininə müticəsinə tabe olub, ifrat dindarlıq edən avam kütlənin stereotip düşüncə tərzini olduqca təbiiliklə ifadə etməyi bacaran müəllif bununla təsvir elədiyi ictimai mühiti oxucunun gözləri qarşısında canlandırmışdır.

Eyni zamanda Muradla dayısı Məmmədəli arasında gedən maraqlı söhbətdə buta haqqında, Xıdır Nəbi ilə bağlı söhbətlərin yer aldığı epizodlar da vardır ki, bütün bunlar da romanda xəlqilik keyfiyyətlərinin, milli ruhun yetərincə əks olunduğunu göstərir. Bu, həm də müəllifin bir qələm adamı kimi xalqın içində olmasından, camaatla bir yerdə yaşayıb nəfəs almasından irəli gələn tale yazısıdır. Çünki xalq ruhunu, adət-ənənəsini, inanclarını dolğunluğu ilə bədii əsərin ruhuna-canına gətirmək üçün ilk növbədə yazarın bu ictimai həyatın içində olması gərəkdir. Məhz müəllif kimi Məmməd Əliyevin xalq ruhuna bələd olması əsərdə folklorizmlərin bol-bol rastlanmasını şərtləndirir. Əsərin bədii keyfiyyətini şərtləndirən bir məqam da onun dilindəki poetizmlə səciyyəvidir. “Göyə ucalan şam ağacları ilə özünə bəzək vuran dağın sağ tərəfi uçurumlu yarğan idi”. Bu cümlədəki metafora adamı bir daha füsunkar təbiət mənzərəsi ilə bağlı düşünməyə vadar edir. Şam ağacları ilə dağ arasında bir əsrarəngiz təbii rabitə vasitəsi yaradılıb. Sanki dağ burada şam ağaclarından özünə bəzək vasitəsi kimi istifadə edib, öz dağ qüruruna bununla bir yaraşıq da verirmiş. Bədii əsərin şirinliyini təmin edən əsas amillərdən biri, başlıcası da məhz ondakı bədii təsvir və ifadə vasitələrinin olması ilə ölçülür. Əsərin baş qəhrəmanı Muradın orta məktəbi bitirdikdən sonra ali təhsil almaq üçün Bakıya yola düşməsi ərəfəsində anasının ona dediyi sözlər də maraqlı poetik bənzətmələrlə yadda qalır:

“Şəhər nə qədər bəzək-düzəkli, gözqamaşdırıcı olsa da, o qədər də ağırlığı var, hər oğul ondan baş çıxara bilmir, itir-qalır onun dolaşıq yollarında! Bax, nilufər gülü var... Ətirli, qoxulu bir çiçəkdir... Arılar rənglərini görüb iyini duycaq üstünə qonurlar. Çiçəyin ətri onları elə məst edir ki, başları qarışır, sonra da nilufərin ləçəkləri qapanır, arılar da ləçəklərin arasında qalıb məhv olurlar... Böyük şəhərlər də bu nilufər gülü kimidir...” (s.337)

Göründüyü kimi burada oğluna öyüd-nəsihət verən ana obrazlı dildə oğluna həyatı başa salmağa çalışır: Şəhər həyatı və nilufər gülü arasında maraqlı təşbeh yaradılıb. İctimai-siyasi məkan olan şəhər mühiti ilə təbiətdəki nilufər gülü ilə bir-birinə bənzədilib. Arı nilufər gülünün ləçəkləri arasında məhv ola biləcəyi kimi, ucqar kənd yerindən də şəhərə üz tutan sadədil kəndli balası beləcə şəhərin qarışıq girdabında boğulub məhv ola bilər. Məhz bu müqayisə nisbətində ananın oğluna nəsihət verməsi həm də birbaşa romanın oxunaqlılığını və bədiiliyini artıran əlamətlərdəndir.

Məmməd Əliyevin romanı - “Həsrətin o üzü” bizə yaşanılmış, geridə qalmış 70 illik sovetlər dövrünü bütün ab-havasıyla açıb göstərir: “Anamın “Əlifba” kitabını açıb iyləməsi, sonra onu sinəsinə basması heç vaxt yadımdan çıxmayacaq. O, mənim məktəbə gedəcəyim günü gözləyirdi. Bu, onun ən böyük təsəllisi, ümid yeri idi... Sonrasını isə bəlkə heç götür-qoy etməmişdi. Məktəb - bütün anaların ən müqəddəs arzusu... Səhər-səhər məktəbin birinci sinfinə gedəndə, çantasına çox zaman gücü çatmayıb onu yerlə sürüyən, əli mürəkkəbə batan, ev tapşırıqlarını nişanlamayıb onu yaddan çıxaran zəif və çəlimsiz bir körpəni gətirin gözünüzün qabağına... Bu körpəni oktyabryat etdik, dedik: Lenin nəvələrisiniz, sonra pioner qalstuku taxdıq boyunlarına - dedik: Lenin kimi çalışıb öyrənməlisiniz; qırmızı ipək qalstukun yaxamızdan asılan uzun qoluna Lenin, bir az qısasına Stalin, kürəyimizdə - çiyinlərimizdəkinə partiya deyib onları inandırdıq. Sonra Komsomola keçirdik onları - dedik: Lenin kimi mübarizə aparmalısınız, hər an öncüllər sırasında olmalısınız!.. Partiyaya (Kommunist partiyası) keçirəndə isə dedik: Lenin kimi yaşayıb işləməlisiniz! Vədlər, vədlər... Biz də onlara inanıb irəli yürüdük” (s.342).

Hər kəs üçün geridə qalan illər nostalji duyğularla xatırlanır. Romanın müəllifi üçün də məhz o illər nostalji duyğularla xatırlanır. Romanın müəllifi üçün də məhz o illər nostalji hisslərlə yadda qalan həsrət dolu bir dünyadır. O həsrət artıq tarixin arxivinə gömülsə də, insanların taleyində, tarixi yaddaşında silinməz izlər qoyub. Adi pioner qalstukuna o dövrlərdə verilən mənəvi dəyərlərin romanda əksini tapması həm də keçmişə səyahət deməkdir. Keçmişə dönüş, tarixə qayıdıb baxmaq - sözün həqiqi mənasında elə həm də “Həsrətin o üzü”nə baxmaq deməkdir. Məmməd müəllim romana əbəs yerə belə bir ad seçməyib. Ömürdən keçən illər əbədilik həsrət qaldığımız həyatımızın ayrılmaz zamanı anlamında düşünülür. Bu həsrətə ancaq yazıçı təxəyyülünün gücü-qüdrəti sayəsində, bədii sözün insan qəlbini riqqətə gətirici təsir qüvvəsi sayəsində “son qoymaq” olar. Elə professor M.Əliyevin də məqsədi bu həsrətə çevrilmiş illərlə yenidən “görüşmək”dir. Bu həsrət təkcə yazıçının özünün həyatından gəlib keçən zaman kəsiyi deyil, bütöv bir nəslin, hər bir kəsin taleyində, keçmişində sovet dövrünün-sosializm quruluşunun qoyduğu təsirlə hesablanan zamandır. O zamanı yaşayanlar - görənlər üçün “Həsrətin o üzü”ndə təsvir olunanlar gerçək həyat həqiqətləri kimi gəlib gözlərinin-könüllərinin qabağından kinolenti kimi keçir.

Deyirlər ki, keçmişi geri döndərmək mümkün deyil. Ancaq həsrətə dönən o keçmişi professor Məmməd Əliyev bədii təxəyyülünün aynasından keçirməklə detallarına kimi geriyə fırladıb bizlərə göstərməyə nail olmuşdur. Sovet Azərbaycanını quru təsvirçiliklə tarix kitablarından yox, canlı, yaşanmış həyatımız kimi bədii sözün ecazkar mənzərəsi fonunda “Həsrətin o üzü” romanından oxuyub müşahidə eləmək bu gün də, sabah da, uzaq gələcəkdə də mümkündür. Tarixin bədii aynası olan əsərlər öz aktuallığını həmişə qoruyub saxlayırlar.

*Şakir ALBALIYEV*